TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

ƏTRAF MÜHİT, TƏBİİ EHTİYATLAR VƏ SAĞLAMLIĞIN QORUNMASI KOMİSSİYASI

DOQQUZUNCU İCLAS

27 may 2024-cü il

ONLAYN

TÖVSİYƏ QƏRARI

"TÜRKPA ÜZV DÖVLƏTLƏRİNDƏ TİBBİ TULLANTILARIN İDARƏ EDİLMƏSİ"

Parlament Assambleyası**:**

Tibbi tullantıların TÜRKPA üzv dövlətlərinin səhiyyə sistemi üçün ciddi təhlükəyə səbəb ola biləcək əsas qlobal ekoloji problemlərdən biri olduğunu ***nəzərə alaraq****;*

Tibbi tullantıların idarə edilməsinin daha da təkmilləşdirilməsinin TÜRKPA regionunun səhiyyə sistemlərinin inkişafında mühüm amil olduğunu ***vurğulayaraq;***

İnsan sağlamlığı üçün uzunmüddətli və arzuolunmaz risklər yarada bilən, ətraf mühitə ciddi təhlükə yaradan, düzgün idarə olunmayan tibbi tullantıları ***nəzərə alaraq;***

Tibbi, xəstəxana və təhlükəli tullantıların düzgün idarə edilməsinin ətraf mühit və səhiyyə sistemi üçün risklərin qarşısının alınması və azaldılması üçün böyük imkan olduğunu ***bildirərək;***

TÜRKPA üzv dövlətlərinin milli səhiyyə qurumlarının nailiyyətlərini birləşdirmək səylərini ***alqışlayaraq;***

TÜRKPA üzv dövlətlərində məsələnin əsas aspektlərinə yönəlmiş tibbi tullantıların idarə edilməsi ilə bağlı keçirilən bütün tədbirləri ***dəstəkləyərək;***

Zərərin həcmini azaldan və potensial riskləri minimuma endirən tibbi tullantıların daha səmərəli idarə olunmasının effektivliyini ***anlayaraq***;

TÜRKPA üzv dövlətlərinin tibbi tullantıların idarə olunması ilə bağlı qoşulduğu və qəbul etdiyi beynəlxalq konvensiyaları və qanunları ***qeyd edərək;***

22 mart 1989-cu ildə qəbul edilmiş təhlükəli tullantıların ölkə sərhədlərindən kənara nəqlinə və zərərsizləşdirilməsinə nəzarət haqqında Bazel Konvensiyasını və 22 may 2001-ci ildə qəbul edilmiş insan sağlamlığının və ətraf mühitin davamlı üzvi çirkləndiricilərin zərərli təsirlərindən qorunmasına dair Stokholm Konvensiyasını ***vurğulayaraq;***

Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq yolu ilə üzv parlamentlər arasında səhiyyə və tibbi xidmət sahəsində əməkdaşlığı ***qeyd edərək***;

TÜRKPA üzv parlamentlərinə tövsiyə edir:

a) üzv dövlətlər arasında milli qanunvericiliyin uyğunlaşdırılması və yaxınlaşdırılması ilə tibbi tullantıların idarə edilməsinə dair hüquqi bazanın *təkmilləşdirilməsi*;

b) tullantıların daha səmərəli şəkildə və ətraf mühitə daha az ziyanla daha ciddi və diqqətli olmaqla, qaydalara uyğun olaraq yerində ayrıca toplanmasına *səy göstərilməsi*;

c) regional səhiyyə şəbəkəsini gücləndirmək məqsədi ilə türk dövlətlərinin tibbi tullantıların idarə olunması sisteminin innovativ modelinin *hazırlanması;*

d) tibbi tullantıların idarə edilməsi ilə bağlı sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi məsələləri haqqında məlumatlılığı artırmaq və lazımi qaydada işçilərin təhlükəsizliyini təmin etmək üçün təhsil proqramları və təlim imkanlarının *təşkil edilməsi;*

e) daha az xəstəlik və ətraf mühitin daha az çirklənməsi ilə nəticələnən təkmilləşdirilmiş siyasət və prosedurların *həyata keçirilməsi;*

f) TÜRKPA üzv dövlətləri arasında müvafiq sahələrdə mümkün əməkdaşlıq istiqamətlərinin perspektivlərinin *nəzərdən keçirilməsi;*

g) tibb müəssisələri üçün aydın təlimatların yaradılması ilə tullantıların idarə edilməsi problemlərinin diqqət mərkəzində *saxlanılması;*

h) materialların və birdəfəlik istifadə olunan avadanlıqların istifadəsini tənzimləməklə əmələ gələn tullantıların miqdarının azaldılması, tibbi tullantıların idarə edilməsi və emalının *gücləndirilməsi;*

i) ətraf mühitin çirklənməsini azaltmaq məqsədilə tullantıların utilizasiyasında yeni texnologiyaların *istifadəsi.*